
ŞEYX MƏHƏMMƏD XİYABANİ
SƏİD ABBASZADƏ
TƏBRİZ - 2001

**SƏİD ABBASZADƏ**

# ŞEYX MƏHƏMMƏD XİYABANİ

**TƏBRİZ - 2001**

Kitabın adı: .............................Şeyx Məhəmməd Xiyabani
Müəllif: ....................................................Səid Abbaszadə
Redaktor: ..................................................Tağı Nəsirzadə
Nəşr edən:.......................................................«Mədyən»
Çap tarixi: ...............................................................2001
Çap növbəsi: ..........................................................Birinci
Kağız formatı: .......................................................10 x 17
Tiraj: .......................................................................2000

# MÜQƏDDİMƏ

## QIZIL SƏHİFƏLƏR

Azərbaycan tarixinin qızıl səhifələrində hər biri insan cəmiyyətinin təkamülü yolunda özünəməxsus və layiqli rol ifa edən böyük insanların adı həkk olunmuşdur. Tarixin bu böyük və alicənab şəxsiyyətləri bəşər həyatının bütün sahələrində - istər siyasi, istər mədəni, istərsə də ictimai sahələrində çox gözəl və müsbət təsirlər qoymuş, xariqələr yaratmışdır. Bu diyar həm öz qədim tarixində, həm də islam dini Azərbaycana gəldikdən sonra müxtəlif keşməkeşli, həyəcanlı hadisələrin çarpazlaşdığı məntəqədə yerləşdiyindən, çox mühüm və təqdirəlayiq əhəmiyyətə malik olmuşdur.

Bu hadisələr burulğanında Babəkin zalım Abbasi hakimlərinə qarşı müqaviməti, Şah İsmayıl Xətainin «Çaldıran» döyüşü, Səttarxan və Baqirxanın Məşrutə hərəkatında göstərdiyi fəaliyyətlər. Şeyx Məhəmməd Xiyabaninin bu diyarın qəddar düşmənləri ilə apardığı mübarizələr tariximizin iftixarlı halları kimi qeyd olunmuşdur.

Qarşınızdakı kitabça böyük bir mücahid və mübariz şəxsiyyətin həyatından söz açır. Haqqında söz açdığımız dahi alim islahatçı idi, həm də yorulmaz səy və fəaliyyətləri ilə bu ölkə xalqını zalımların, istilaçıların boyunduruğundan xilas etmək, ilahi ədalət hökumətini qurmaqdan başqa bir məqsədlə qiyam etməmişdir. O, Birinci Dünya müharibəsində Çar Rusiyasının, sonra isə kommunist istilaçılarının qarşısında müqavimət göstərərək onların ölkənin qərb tərəfindən İrana nüfuz etməsinin qarşısını almış, İranın ərazi bütövlüyünün qorunması yolunda misilsiz fədakarlıqlar göstərmişdir.

Şeyx Məhəmməd Xiyabani İranı İngiltərənin müstəmləkəsinə çevirən 1919-cu il müqaviləsinə qarşı silahlı qiyama başladı, Azərbaycanın adını Azadistan qoyaraq bu

ölkə cəngavərlərini ölüm-dirim mübarizəsinə səslədi. O, istiqlaliyyət mücadiləsinə başlamaq üçün şücaətli şəxsiyyətləri vətən qeyrətini qoruyub saxlamağa çağırdı, nəhayət müqəddəs amal yolunda qızıl qanına boyandı, öz adını məşrutə hərəkatı şəhidlərinin cərgəsində böyük və fədakar bir insan kimi həkk etdi.

Xiyabaninin şəhid olması ilə, mənfur niyyətli düşmənlərin təsəvvür etdiyinin əksinə olaraq, bu hərəkat İranda sona yetmədi, ölkə istiqlaliyyətinin, heysiyyət və izzətinin qorunması yolunda başqa bir şəxs qiyam etdi. Bu fədailər hərəkatı bir daha İran tarixini təlatümə gətirdi, yarım əsrlik bir müddətlə pak sülalədən olan bir şəxsiyyət məzlum kütlələrin intiqamını almaq üçün geniş imperialistlərlə mübarizəyə başladı.

Bəli, Xomeyni gəldi. Sanki o, tarixin ənginliklərindən doğularaq bəşəriyyətin atası Adəm (ə)-ın sülbündən gəlmiş, tarixin bütün dövrlərini gəzib-dolaşmış, bütün peyğəmbərlər və saleh şəxsiyyətləri yaxından görmuş, onların qəlblərini qana döndərən gizli sirlərini eşitmişdi. O, bütün vücudunu İslama fəda etdi, müsəlman xalqlarına hidayət nurunu, izzət və ağalığı ərməğan gətirdi.

İmam Xomeynidən sonra Xiyabaninin məsləkdaşı olan başqa bir şəxsiyyət bir daha başı uçalıqla, həqiqət ilə dolu olan bir qəlblə, kainatın Yaradanına imanla, çox çətin olan yolu şərafət və izzətlə davam etdirməyə başladı. Bəli, Ayətullah Xaməneyi də Xiyabani kimi böyük şəxsiyyətlər yetirən diyardandır.

Xiyabani Təbrizə köçməzdən və bu ləqəblə məşhurlaşmazdan əvvəl, Şeyx Məhəmməd Xameneyi adı ilə məşhur idi. Çünki o, Xamənə qəsəbəsində dünyaya gəlmişdi, digər tərəfdən də o yerin görkəmli ruhanisi olan Seyyid Hüseyn Xaməneyinin (İran İslam İnqilabının hazırkı rəhbərinin babası) kürəkəni idi (yəni Şeyx Məhəmməd Xiyabani Ayətullah Xaməneyinin bibisinin əridir).

İran İslam respublikasının rəhbəri 1372-ci hicri-şəmsi ilində (1993) öz doğma diyarı olan Təbrizə səfər edərkən Səttarxan və Baqirxanı bu diyarın fədakar qəhrəmanları kimi bayan etdikdən sonra, Şeyx Məhəmməd Xiyabanini mübariz və azad fikirli bir ruhani kimi təqdim edərək öz gözəl azəri ləhcəsi ilə tarixin bu böyük şəxsiyyətinin İran xalqına göstərdiyi xidmətləri yad etmişdir.

# DOĞULDUĞU YER

Ərazisinə görə kiçik, zahiri cəhətdən isə gözəl qəsəbə olan Xaməne, Təbrizin yetmiş iki kilometrliyində yerləşir və Şəbustər şəhərinin tabeçiliyindədir. Dəniz səviyyəsindən 1380 metr hündürlükdə yerləşən Xaməne qəsəbəsi təbii-coğrafi mövqe baxımından Azərbaycanın gözəl mənzərəli məntəqələrindən biri sayılır. Onun ətrafını üzük qaşı kimi halqaya alan Mişovdaq dağları payızın axırlarından başlayaraq baharın əvvəlinə kimi qarla örtülü olur, baharın əvvəlində qarın əriməsi ilə son dərəcə gözəl təbiətli və mənzərəli yaz və yay ayları gəlir. «Kəbutər Əli» adlı çay Xamənenin qərb tərəfində, «Diyaran» çayı isə şimal tərəfində bahar fəslinin selləri ilə çoşub daşanda çox görməli və mənzərəli olur. Dariyan çayının su hövzəsinin sahəsi 497 kv. km-ya çatır. Bu qəsəbənin təbii mənzərələrindən ən maraqlısı Kəbutər Əli çayının üzərində yerləşən çox gözəl kaniondur ki, bəzi yerlərdə onun eni 300 metr, bəzi yerlərdə isə - xüsusilə dəryanın yaxınlığında bir metrə (30 metr dərinlik ilə) çatır. Xamane cənub tərəfdən Şərəfxanə limanı ilə Urmiyə dəryaçasına birləşir. Şərəfxanə limanı iqstisadi baxımdan buraya birləşən şəhərlərin inkişafına səbəb olmaqla yanaşı, məntəqənin gözəl ab-havasına da dərin təsir qoyur. Bu qəsəbə əhalisinin əsas məşğuliyəti əkinçilik və maldarlıqdır. İslam inqilabından sonra, eləcə də İranda iqtisadiyyatın rövnəqlənməsindən sonra Xamənedə toxuculuq, xüsusi ilə xalçaçılıq sənayesi inkişaf etmişdir. Xaməne tarixi baxımdan uzaq keçmişə malikdir. Belə ki, bu şəhərin mərkəz hissəsində qədim bir çinar ağacı vardır ki, qocaların dediyinə görə onun 1400 yaşı vardır. Bu ağac Rəşidi xəlifələrinin dövründən indiyə qədər uzun bir tarixi mərhələni keçərək, bu illər boyu acı və şirin hadisələri müşahidə etmişdir.

# BİRİNCİ FƏSİL

## TƏVƏLLÜD

1258-ci hicri şəmsi ilinin (1889-cu miladi) bahar günlərinin biridir, kiçik və gözəl Xaməne şəhəri mavi və ürək oxşayan uyğudan ayılmış kimi hərəkətə gəlir. Həyat və məişətini torpaqdan və öz əl zəhmətləri ilə təmin edən camaat halal ruzi qazanmaq məqsədi ilə iş yerlərində fəaliyyətə məşğuldurlar. O gün bu qəsəbə əhalisi üçün heç bir dəyişiklik baş verməmişdir. Mavi səma şəffaf zülal kimi parlayırdı. Qızılı rəng günəş şüaları Mişovdağın ətəklərində olan yasəmən və bənövşələri öz ağuşuna almışdı. Quşların ürək oxşayan səsləri qəsəbə əhalisinə, gözəlliyini müşahidə etmək mümkün olan ağacların şaxələrində nəvaziş söyləyirdi. Gözəlliyini vəsf etmək mümkün olmayan belə bir bahar gündüzündə günəş şərq tərəfdən yavaş-yavaş dağların başına yüksəlməyə başladı. Günorta namazının vaxtı çatdı, lakin Hacı Əbdül-həmidin dükanı yenə də bağlı idi. O gün heç kəs hansı hadisənin baş verdiyini bilmirdi. Bəziləri deyirdilər ki, Hacı Əbdül-həmid səfərə getmişdir. Bəziləri onun xəstələnməsini, yaxud müəyyən bir çətinliklə üzləşməsini təsəvvür edirdilər. Lakin o, heç vaxt qonşularına xəbər vermədən səfərə çıxmazdı. Nəhayət o gün gəlib keçdi, günəş dağların arxasında qürub edib öz yerini zülmət qaranlığa verdi. Gün batandan sonra evlərdən çıraqların ulduza bənzər işıltısı gözə dəyirdi. Xamənе şəhərinin məscidi özünün daha parlaq çıraqları ilə hər yerdən seçilirdi.

Camaat namazında Hacı Əbdül-həmidin yeri məlum idi. O, bu gecə də həmişəki yerində dayanaraq Allah qarşısında ibadətə məşğul olub, bu mənəvi anları qənimət sayırdı. Camaat namazı sona çatdı. Hacı Əbdül-həmid bir qədər şükür səcdəsi etdikdən sonra yerindən qalxıb ətrafındakıların hal-

əvalını soruşdu. Hacının səsi bir qədər tutulmuşdu, lakin üzündən xoşhallıq sezilir, dodaqlarında isə təbəssüm görünürdü. Yaxından baxarkən gözlərində sevinc parıltısını da müşahidə etmək olardı. O, zahirdə ondan bir xəbər gözləyən dostlarının üzünə baxaraq aram-aram əllərini göyə qaldırıb dedi: Pərvərdigara, sənə şükur olsun ki, bizim nikarançılığımızı aradan qaldırdın! Bu sözlərdən Hacı Əbdül-həmidin yaxın dostlarından bəziləri məsələnin nə yerdə olduğunu dərhal anladılar. Çünki bir neçə gün bundan əvvəl dostlarına demişdi ki, o, tezliklə övlad sahibi olacaqdır. Söhbət əsnasında Məhəmməd adını dilinə gətirdikdə hamısı başa düşdü ki, yeni doğulan körpənin adı Məhəmməddir.

Bəli, Məhəmməd dünyaya gəldi, mömin bir ailədə böyüyüb boya-başa çatdı. Məhəmmədin körpəlik və uşaqlıq çağları ötüb keçdi. Tədricən böyüyərək yeddi yaşına çatdı. Bu dövrdə bütün zəhmətlər anası Rüqəyyə xanımın üzərinə düşmüşdü. Çünki atası Azərbaycanın məşhur tacirlərindən olduğundan Xaməne şəhərində az qalır, vaxtının çoxunu ticarətlə bağlı olaraq başqa şəhərlərdə keçirirdi. O, Azərbaycan şəhərlərindən əlavə, Rusiyanın Sankt-Peterburq şəhərində də ticarətlə məşğul olduğundan, orada yaşamaq məcburiyyətində qalırdı. Amma bütün bundarla yanaşı o, Məhəmmədin tərbiyəsindən də qafil qalmayaraq, onun elm təhsili barəsində düşünürdü. Çünki Əbdül-həmidin özü maarifçi bir şəxs idi, həyat şəraiti ilə əlaqədar baş verən dəyişikliklərdən çoxlu təcrübələr, ibrətamiz dərslər öyrənmişdi. (Maarifçiliyə meyl etməsinin bir səbəbi də onun Avropa ölkələrini gəzib-dolaşması və Rusiyada bir müddət yaşaması idi.) O yaxından hiss etmişdi ki, elmin, bir cəmiyyətin maarif və mədəniyyətinin formalaşmasında nə qədər böyük rolu vardır. Buna əsasən həmişə bu fikirdə idi ki, övladının elm öyrənməsi üçün lazım olan şəraitləri təmin etsin. Əbdül-həmid Rusiyaya səfər etməzdən əvvəl Məhəmmədin əlindən tutub məktəbxanaya apardı.

Məktəbxana şəhərin mərkəzində çox gözəl və geniş bir məkanda yerləşirdi. Məhəmməd məktəbin həyətinə daxil olarkan ətrafındakı gözəl mənzərəyə heyran oldu. Əbdül-həmid mömin, xeyirxah insan olduğundan məktəbxana, məscid və sair bu kimi yerlərdə onu daha yaxşı tanıyırdılar. O, məktəbxananın müəllimi ilə danışlıqdan sonra elə həmin gün yeniyetmənin həyatını dəyişəcək maraqlı bir hadisə baş verdi. Məktəbxananın müəllimi Məhəmmədə elm öyrətməni öz öhdəsinə götürdü. O, tezliklə elm öyrənməyə başlayacaqdır. Əbdül-həmid Məhəmmədi məktəbə həvalə etdikdən sonra, özü ticarət məqsədi ilə Rusiyaya yola düşdü. Məhəmməd də yavaş-yavaş məktəb həyatı ilə tanış oldu, o dövrdə tədris olunan elmləri öyrənməyə başladı. Üç il müddətində gözəl xəttatlıq üslubu ilə yazmağı öyrəndi, Sədinin «Gülüstan» kitabını oxumağa başladı. Bununla yanaşı Quranı da öyrənir, ərəb ədəbiyyatı ilə maraqlanıb tanış olurdu. Atası Rusiyadan qayıtdıqdan sonra oğlunun əvvəlki kiçik və arıq Məhəmməd olmadığına inana bilmirdi. Onun boyu uzanmış, özü isə bülbül kimi dil açmışdı. Atası hələ uşaqlıq çağlarından bu istedad və müvəffəqiyyət rəmzini oğlu Məhəmmədin gözlərindən oxumuşdu.

Məhəmməd məktəbxana dövranını Xaməne şəhərində bitirdi. Yenieytməliyin ilk çağlarında birinci dəfə olaraq atası ilə birlikdə Dağıstana səfər etdi. Bir müddət atası ilə birlikdə ticarətlə məşğul oldu. Orada da çoxlu şeylər öyrəndi. Yaxşı oxuyub yaza bildiyinə görə atasına çoxlu köməyi dəyirdi. Atası da onun bu işlərindən razılıq edirdi. Atasının yanında işləmək Məhəmməd üçün çox maraqlı və xoşagələn idi, lakin bununda belə Dağıstanda bundan artıq qala bilmədi.

## DAĞISTAN

Dağıstan keçmiş Sovetlər birliyinin əsarəti altına daxil olmazdan əvvəl də muxtar respublika idi. Əhalisinin əksər

hissəsi müsəlman olmasına baxmayaraq, orada köçəri ruslar, ukrainlər və yəhudilər də yaşayırdılar. Bolşeviklər oranı çox böyük çətinliklə öz istilaları altına ala bilmişdilər. Çünki yerli hökumət orqanları və islamçı müqavimət dəstələri komunistlərlə uzun müddətli müharibələr aparmış, qanlı müharibələrdən sonra davam gətirməyib sovetlərin istilası altına keçmişdir.

Məhəmməd burada bolşeviklərin gəlişindən çox-çox qabaq olmuş, atası ilə birlikdə bu islam ölkəsində işləmişdi. Hacı Əbdül-həmidin Məhəmmədi İrana qaytarmasının əsl səbəbi, onun öz övladının dini elmlər üzrə təhsil almasında maraqlı olması idi. Çünki o zaman Dağıstanın çox nizam-intizamlı və dərin savadlı alimlərə malik olan elmiyyə hövzəsi yox idi. Mövcud olan dini mədrəsələrdə Dağıstanın sünnü təriqətində olan müsəlmanlarına məxsus idi. Odur ki, o, ali dini təhsil almaq üçün atası ilə birlikdə bir daha Təbrizə qayıtmaq məcburiyyətində qaldı.

Məhəmmədin Təbrizdəki təhsili dövrundə bu şəhərdə bir neçə mədrəsə var idi. Öz dini təhsillərini artırmaq istəyənlər yaxın-uzaq yerlərdən bu mədrəsələrə qəbul olub dini elmləri mənimsəyirdilər. Şiələrin dini mədrəsələrində təhsil sistemi qədimdən tələbələrin azad dərslər seçərək almaları əsasında olmuşdur. Yəni hər kəs öz istedadı qədər dərs oxuya bilərdi. Bu elmi mərkəzlərdə ərəb ədəbiyyatı dərslərindən əlavə ictihad dərəcəsinə çatmaq üçün zəruri olan üsul, fiqh və hədis elmləri də oxunurdu. Bəziləri fəlsəfə, riyaziyyat, nücum (astronomiya) elmlərinə də həvəs göstərirdilər. Bu dərslərdə də Şeyx Məhəmməd Xiyabani dərin savada malik olmuşdur.

Bu dərslərin əksəriyyətinin tədris olunduğu Təbrizin dini mədrəsəsinə daxil olmaq Məhəmmədin həyatında yeni və bərəkətli bir mərhələnin başlanmasına səbəb olur. O müqəddimat və ərəb ədəbiyyatını öyrəndikdən sonra üsul və fiqh dərslərini dövrün müctəhidi ustad Əbül-həsən ağa Ənkəcidən öyrənərək, bu savada da yiyələnir. Nücum,

riyaziyyat, fəlsəfə ilə yaxından tanış olur. O dövrdə nücum elmində şöhrət tapmış ustad Ağa Mirzə Əbdül-əzim münəccim idi ki, Məhəmməd bir müddət onun dərslərində iştirak etmişdir.

Şeyx Məhəmmədin səmimi dostlarından biri olan Ağa Hacı Məhəmməd Əli Badamçinin dediyinə görə, Şeyx Məhəmməd Xiyabani fiqh və üsul elimlərində öz müəllimi müctehid Ənkəcinin dərsində iştirak edən ən savadlı və çalışqan tələbələrdən biri sayılırdı. O, qısa bir müddət ərzində ictihad dərəcəsinə çatan ruhanilərdən birinə çevrildi. Ustad Mirzə Əbdül-əzim münəccimdən öyrəndiyi nücum elmində bütün tələbələrdən irəlidə olaraq ən çətin astronomik məsələləri belə həll edə bilirdi. O qəməri tarixi ilə təqvimlər yazmış, eyni zamanda hikmət, kəlam və ədəbiyyatda da məharət qazanmışdı. Hətta həmin sahələrdə dövrünün ustadlarından sayılırdı. O, ana dilindən əlavə fars, ərəb və rus dillərinə də yüksək səviyyədə yiyələnmişdi və bu dillərdə gözəl və rəvan şəkildə söhbət edirdi.

Qayınatasının vəfatından sonra yerli əhali Şeyx Məhəmmədin fəzilət və kamalından agah olduğundan, ondan Təbrizin «Cami» məscidində imamət etməsini xahiş edirlər. Bu zaman Şeyx Məhəmməd cavanlıq yaşlarında idi. Təqribən iki ilə yaxın bir müddət günortalar Təbrizin «Cami» məscidində (hal-hazırda da şəhərin məşhur və mühüm məscidlərindən biridir) camaat namazı qılırdı. Sübh və axşamlar da «Kərimxan» məscidində camaat namazı qılmaqdan əlavə, ümumi məclislər təşkil edərək moizə və xütbələr oxuyurdu. Bu müddət ərzində onun bacarıq, elm və təqvası ilə yaxından tanış olan şəhər əhalisinin ona qarşı rəğbəti daha da artmışdı.

Xiyabani ictimaiyyətdə ciddi çalışıb fəaliyyət göstərdiyinə görə cavanlıq dövrlərindən xalq arasında şöhrət qazanmışdı. O elmiyyə hövzəsinin böyük məllimlərindən birinə çevrilmişdi. Hələ 30 yaşı tamam olmamışdı ki, Təbrizin

«Talibiyyə» mədrəsəsində yüksək elmi məqama malik olaraq, müxtəlif sahələrdə tədris edirdi. Hələ cavan ikən, onun elmi şəxsiyyət və mənəviyyəti şəhərin böyük alimləri tərəfindən də qəbul edilmişdi. Onun üzü ağ, saçları qara, bədəni nazik, gözləri iri və qara idi. Eynək arxasından zillənən iti baxışları, onun xüsusi ciddiyyət və ayrıqlığını göstərirdi.

## HÜSEYNİ SÜLALƏSİ

Şeyx Məhəmməd Xiyabani iyirmi yaşında ikən başqa bir iftixarlı hadisə ilə üzləşir. O dövrdə Azərbaycanda böyük alim sayılan Ayətullah Seyyid Həsən Xaməneyi (İranın rəhbəri Ayətullahül-üzma Seyyid Əli Xaməneyinin babası) yüksək şöhrət və məqam sahibi idi. Təbriz şəhərində camaatın fiqhi məsələlərdə mərcəyi-təqlidi, ictimai, siyasi və sair sahələrdə onların pənah yeri sayılırdı. Şeyx Məhəmmədin Ayətullah Seyyid Hüseyin Xaməneyi ilə olan yaxın əlaqəsi məşrutə hərəkatı dövründə başlandı. Bu böyük alim həmin zaman çox düzgün və bəsirətli mövqe seçərək özünü İranın ictimai-siyasi məsələlərində islahatlar tərəfdarı olduğunu bildirdi. Onun seçdiyi bu düzgün və şücaətli mövqe mübariz təbiətli cavan olan Məhəmmədin günbəgün ona qarşı məhəbbətinin artmasına səbəb oldu və onunla bir başa əlaqə yaratdı. Digər tərəfdən də Məhəmmədin elmi şöhrəti, inqilabi əhval-ruhiyyəsi də Ayətullah Hüseyni kimi böyük bir alimin nəzərindən yayına bilməzdi. Məhz elə bu yaxın rabitə Şeyx Məhəmmədin Ayətullah Seyyid Hüseyn Xaməneyinin fəzilətli, şücaətli və vəfadar qızı Xeyransa ilə evlənməsinə səbəb oldu. Şeyx Məhəmməd bu qohumluq səbəbi ilə İmam Hüseyn (ə)-ın nəslindən olan əsli-nəcabətli seyyidlərlə qaynayıb qarışdı. Onun vəfalı həyat yoldaşı Xeyransa xanım öz alim və mücahid ərinin həyatının son anlarına qədər, onunla çiyin-çiyinə mübarizə apararaq çətinliklər qarşısında səbirliklə sinə gərdi. Heç düşmən qarşısında əyilmədi.

Xiyabani evləndikdən sonra Təbrizin Xiyaban adlı məhəlləsində məskunlaşdı və buna görə Şeyx Məhəmməd Xiyabani adı məşhurlaşdı.

1372 (1993)-ci ildə islam inqilabının böyük rəhbəri Həzrət Ayətullah Xaməneyi Azərbaycana səfərində Təbriz əhalisi tərəfindən misilsiz alqışlarla qarşılandı. O, camaata xitab edərək onların Məşrutə hərəkatında, İslam inqilabının formalaşmasında və səkkiz illik müharibədəki fədakarlıqlarının yadda qalan xatirələrini xatırlayaraq, Səttarxan, Baqirxan kimi fədailəri yad etdi, Şeyx Məhəmməd Xiyabanini azad fikirli mübariz adlandırdı, eləcə də öz babasının Məşrutə hərəkatının yaranıb formalaşması barəsində buyurdu: ... O dövrdə Təbrizin böyük alimi - babam mərhum Hacı Seyyid Hüseyn Xaməneyi bu hərəkatın aparıcı qüvvələrindən idi. O dövrdə camaat bu böyük alimin evinə gedir, Məşrutə hadisələri barəsində ondan soruşur və o da camaatı bu hərakatı davam etdirib kömək etməyə təşviq edirdi.

# İKİNCİ FƏSİL

## ŞEYX MƏHƏMMƏD XİYABANİNİN YAŞADIĞI DÖVRDƏ SİYASİ ŞƏRAİT

1286-cı hicri şəmsi ilində (1906) İranda müxtəlif tarixi hadisələr baş verdi. Günbəgün bu ölkədə yeni siyasi cərəyanlar yaranır, acılı, şirinli hadisələr özünü göstərirdi. Bu ildə baş verən və nəticəyə çatan ən mühüm hadisə İranda Məşrutə hərəkatı olmuşdur. Bu hərəkatdan əvvəl ölkə bütün sahələrdə şahlıq üsul-idarəsi tərəfindən diktatura şəklində idarə olunurdu və xalqın ölkənin müqəddəratını həll etməkdə azaçıq belə haqqı yox idi. Lakin Məşrutə hərəkatının qələbəsi ilə camaat öz müqəddəratını təyin etmək kimi ən əsaslı hüquqlarını əldə edə bildilər. Digər tərəfdən iki yüz ildən artıq bir dövrdə bu ölkəyə mütləq şəkildə hakimiyyət edən qacarilər sulaləsinin qüdrəti daha da məhdudlaşdı. Məşrutiyyət fərmanı həmin ilin Cəmadiyus-sani ayının iyirmi yeddisində şah Müzəffərəddin tərəfindən verildi və ondan on beş gün sonra milli məclis təşkil olundu. O zaman iyirmi yeddi yaşlı Şeyx Məhəmməd Xiyabani artıq, elmiyyə hövzəsinin müxtəlif dərslərini başa vurmuşdu. Təbrizdə təhsilini davam etdirmək mümkün olmadığından, Xiyabani yüksək ictihad mərhələsinə çatmaq məqsədi ilə Nəcəfi-əşrəf hövzəsinə səfər etməli idi. Çünki həmin dövrdə Nəcəf elmiyyə hövzəsi şiə aliminin yeganə ali-elmi mərkəzi idi.

İctihad məqamına çatmağa istedadlı olan şəxslər dünyanın hər yerindən Nəcəf şəhərinə gəlirdi. Xiyabani də belə bir şəraitdə idi. Lakin son qərara gəlmək onun üçün olduqca çətin idi. Çünki şəhərin «Cami» məscidinin yeganə alimi Ayətullah Hüseyninin vəfatından sonra o, yeganə alim sayılırdı. Eləcə də dünyada, xüsusi ilə İranda baş verən ictimai-siyasi hadisələr barəsində agahlığa malik olduğundan,

şəhərin camaatının diqqət mərkəzində idi. Cari məsələlər barəsində əql üzündən olan araşdırmaları və təhlilləri onun şöhrətini günbəgün artırırdı. Bəzi agah insanların nəzərincə bu cavan tələbə İran xalqı üçün ümid nöqtəsi sayılırdı. Xiyabani də camaatın ona qarşı rəğbətindən qafil deyildi, lakin bu kimi məsələlərə əslən etina etmir, hətta bəzi hallarda çoxlu məclislərdə iştirak etməməyə səy göstərir və öz yerinə şəhərin başqa alimi mərhum Növbərini göndərirdi. Növbəri də dövrün ictimai məsələlərinə agah olan bir alim, eləcə də Xiyabaninin sirdaşlarından sayılırdı. Sonralar müxtəlif səngərlərdə onunla çiyin-çiyinə mübarizə aparmışdı.

## HADİSƏ GÜNÜ

Şah Müzəffərəddin Məşrutiyyət fərmanını verdikdən, camaatın seçdiyi nümayəndələrin vasitəsi ilə təsdiq olunan əsas qanunu imzaladıqdan sonra qüdrət kürsüsündə çox qalmadı və on gündən sonra vəfat etdi. Öz yerini oğlu Məhəmmədəli Mirzəyə verdi. Məhəmmədəli Mirzə o dövrdə ölkənin vəliəhdi sayılırdı və İranın Osmanlı dövləti və Rusiya hökumətləri tərəfindən ifa etdiyi mühüm mövqeyə görə Təbrizdə iqamətgah seçmişdi. Atasının vəziyyətindən agah olduğu zaman dərhal Təbrizdən hərəkət etdi, atası öldükdən sonra səltənət kürsüsündə oturdu. Atasının əksinə olaraq o, yadellilərin İrana ayaq basmasına çox da əhəmiyyət vermirdi. Onun hakimiyyəti dövrundə bir tərəfdən ruslar, digər tərəfdən də ingilislər günbəgün öz mövqeylərini İranda möhkəmlədirdilər. Məhəmmədəli şah zahirdə Məşrutə və milli məclisi qəbul edirdi, lakin onun hökumətində belə şeylərə əsla əhəmiyyət verilmirdi. Bəzi hallarda da öz batini əqidəsini izhar edirdi. Belə etinasızlıqlara nümunə olaraq tac qoyma mərasimində məclis nümayəndələrinə etina etməyib, onları bu mərasimə çağırmamasını qeyd etmək olar. O gündən etibarən şah Məşruta hərəkatının fəallarını vəzifədən

uzaqlaşdırır, ölkənin ən əsaslı məqam postlarını müxaliflərə verməklə, öz əqidəsini isbata yetirir və nəhayət ruslara arxalanaraq milli məclislə qarşıdurma yaradırdı. Hakimiyyətindən iki il keçməmişdi ki, o, ilk milli məclisin buraxılması hökmünü verdi. 1282-ci ilin Tir ayının ikisində ruslar Liyaxovun sərkərdəliyi ilə milli məclisin binasını mühasirəyə alaraq, orada olan deputatları və bir qrup camaatı top atəşinə tutdular. Bu hadisə İran millətinə dəyən ən ağır xəsarətlərdən biri sayılırdı. Uzun illər öncə başlanan xalq hərakatı dərhal dayandırıldı. Bu hərəkatın Ayətullah Behbəhani, Ayətullah Təbatəbai kimi rəhbərləri sürgün edildi. Mirzə Cahangir xan Sur İsrafil kimi fədakar insanlar şəhid edildi. Rusiyanın hərbi-siyasi himayəsi ilə İranda diktatura rejimi bərqərar edildi.

## YADELLİLƏRİN AYAQ İZLƏRİ

Artıq iyirminci əsrin başlanğıcıdır. Lakin qərb ölkələrində siyasi vəziyyət sabit deyildir. Bir tərəfdən nikbətli daxili müharibələr, digər tərəfdən də Almaniya, İtaliya kimi ölkələrin öz qüdrətlərini nümayiş etdirməsi Avropanın gələcək vəziyyətini naməlum vəziyyətdə qoymuşdu. İyirminci əsrin əvvəllərində baş verən müharibələr qüdrət göstərmək məqsədi ilə deyil, başqa ölkələrin enerji və təbii mənbələrini ələ keçirmək məqsədi ilə aparılan istismarçılıq müharibələri idi.

Qüdrətli ölkələr bir-biri ilə rəqabətə girərək bacardıqları qədər təbii məntəqələri, neft və qaz yataqlarını ələ keçirmək məqsədində idilər. O dövrdə İrana da yadellilərin ayaq basması bundan başqa bir məqsəd güdmürdü.

İran, Avropa ölkələri üçün tanınmış bir ölkə idi. Rusiya da az-çox İranın istər zəngin neft, qaz və sair təbii yataqlarından, istərsə də məntəqədə ifa etdiyi strateji mövqeyindən agah idi. Birinci Pyotr öz vəsiyyətində ruslara

sifariş etmişdi ki, «gərək ardıcıl müharibələr apararaq, Osmanlı və İran dövlətlərini aradan aparasınız. Tədriclə Qara dənizi ələ keçirməyə çalışmalı, orada gəmi qayırma sənayesini inkişaf etdirməlisiniz. Bu tədbirlərlə Baltik dənizinə olan istilanızı qüvvətləndirə bilərsiniz. Bu zaman İran dövlətinin məhv edilməsi üçün səyləriniz hər bir şeydən zəruri olmalıdır. Nəyin bahasına olursa-olsun Fars körfəzinə çatmalısınız».

Rusların istər 1801-ci ildə başlanan və 1828-ci ildə rusvayçı «Türkmənçay» müqaviləsi ilə sona yetən birinci müharibəsi, istərsə də 20-ci əsrin əvvəllərində İrana qoşun yeritməklə törətdikləri ikinci müharibəsi məhz böyük Pyoturun gördüyü yuxuların təbiri sayılırdı. Rusiyanın İranın daxili işlərinə müdaxilə etməsinin əsas səbəbi də həmin məsələdən doğurdu. Çünki Rusiya bilirdi ki, əgər İranda Məşrutə hərəkatı qələbə çalarsa, orada siyasi fəza nizama salınacaq və belə olan halda şübhəsiz İranda qanuni hakimiyyət başlanacaq. Nəticədə Qaçar şahı iqtidarını əldən verəcək, eyni zamanda bu sülalə hakimlərinin Rus dövlətinə vəhşət və qorxu üzündən verdiyi vergilər də kəsiləcəkdir. Buna görə də Rusiya həmişə İranın siyasi işlərinə müdaxilə etmək məqsədini güdürdü. Rusiyanın bu çirkin niyyətini həyata keçirdiyi ən məşhur hadisə üç ölkənin: Rusiya, İngiltərə və Hindistanın öz aralarında bağladıqları müqavilə idi ki, 1907-ci il avqust ayının 28 və 30-da Peterburqda imzalandı. Onlar İran, Əfqanıstan və Tibet kimi üç ölkənin barəsində müdaxiləçilik siyasətlərini əməli olaraq həyata keçirmək üçün müqavilə bağladılar. Yalnız bu müqavilədən sonra Məhəmmədəli şah Rusların köməyi ilə ilk milli şuranı top atəşinə tutdu və məclisin buraxıldığını elan etdikdən sonra ölkənin şimalı və şimal-qərbi, eləcə də Azərbaycan rusların hakimiyyəti altına keçdi.

## AZƏRBAYCAN FƏDAİLƏRİ EDAM OLUNUR

Milli məclisin top atəşinə tutulması əhali arasında ciddi əks-sədaya səbəb oldu. İranın hər bir məntəqəsində iğtişaşlar yarandı. Şimalda, cənubda və mərkəzi məntəqələrdə camaat tərəfindən milli hərəkatlar başlandı, mübariz dəstələr formalaşdı. Azərbaycan da yeni diktaturanın əleyhinə qiyam yarandı, Təbriz isə mübarizə ocağına çevrildi. Diktatura ilə mübarizənin Təbrizdə daha çox əks-səda salmasının səbəbi, camaat arasında nüfuzlu rəhbərlərin olması idi. Siqətul-islam Ziyaul-üləma və Ağa Məhəmməd İbrahim Qafqayçi kimi böyük şəxsiyyətlər rusların çirkin niyyətlərindən, onların istilaçılıq məqsəllərinən agah olduqlarından camaata bu barədə məlumat və təhlillər verir, hərəkat günbəgün genişlənərək daha da vüsət alırdı.

Rus qüvvələri 1330-cu ili məhərrəm ayının yeddisində Təbrizə daxil oldular. Başçıları təcrübəli sərkərdələr olan Tiflis və İrəvan qoşunu bir gündən az müddətdə azadlıqsevərlərin pənahgahı olan mərkəzi xiyabanların çoxunu işğal etdilər. Təbriz şəhəri Rus qüvvələri tərəfindən işğal olunduqdan sonra şəhərə qəm-qüssə qübarı çökdü. O gündən mücahidlərdən əlavə sadə isanların da rusların caynağından qurtulmağa bir yolları yox idi. Zaman keçdikcə düşmən daha da güclənir, Təbriz əhalisi mərkəzi hökumətin xəyanətlərinin ağırlığını öz çiyinlərində daha artıq hiss edirdilər. Təbriz əhalisinin müqaviməti iki gündən artıq çəkmədi, nəhayət rus qüvvələri şəhərin şimal tərəfində əsgərlərin yerləşdiyi məhəlləni işğal edərək evbəev axtarıb mübarizləri tutmağa başladılar.

O gün Siqətul-islam və mübarizənin rəhbərliyini öhdəsinə götürən digər şəxsiyyətlər tutulub Rusiyanın konsulluğuna aparıldı. Bir neçə gündən sonra (Aşura günü) onu və köməkçilərini Təbrizin şimalındakı bağda edam etdilər.

Azərbaycanın görkəmli mübarizlərinin bu bağda edam olunması Təbriz əhalisi üçün çox ağır və kədərli hadisə idi.

## YAŞASIN İRAN!

Bu şüar vətənə, insaniyyətə, şərafətə aşiq olan doqquz nəfərin verdiyi son şüar idi ki, Hüseyn ibn Əli (ə)-ın məktəbindən aldıqları iman və etiqad dərslərindən irəli gəlirdi. Onların son sözü bu oldu: «Yaşasın İran! Yaşasın Məşrutə və azadlıq!» Təbrizdə Aşura gününün kədərli hadisələri İmam Hüseyn (ə)-ın Aşura faciəsi ilə üst-üstə düşürdü. Bu faciə İran camaatının, xüsusi ilə azərbaycanlıların xatirəsində «Qanlı Aşura» faciəsi kimi yadda qaldı. Deyirlər ki, o günün faciəsi imam Hüseyn (a)-ın Aşura gününün faciəsinə çox oxşayırdı. Belə ki, yeganə günahları öz hüquqlarını müdafiə etmək, yadellilərin öz vətənlərinə ayaq qoyması ilə mübarizə aparmaqdan ibarət olan bir neçə qeyrətli insan, öz şəhərlərində qorxu və vəhşət hissindən törənən nikbətli və zillətli sükutlar içərisində dara çəkilir, bundan da dəhşətlisi, dara çəkilən qəhrəmanları bir ovuc şəxsiyyətsiz insanları tənəyə məruz qoydu.

O gün Siqətul-islam hamıya toxtaqlıq verir, bununla da onların keçirtdikləri vəhşət və qorxu hissini azaldırdı. Deyilənlərə görə dar ağacının altında Şeyx Səlim həyəcan hissi keçirirdi. Siqətul-islam bu iztirabı görüb qəmlənərək ona dedi: Şeyx! Nə üçün bu qədər həyəcanlısan? Bizim üçün bundan da yaxşı hadisə ola bilərmi ki, belə bir gündə din düşmənlərinin əli ili şəhadətə çatırıq?!

Qədir də söyüd yarpağı kimi əsirdi. Mərhum Siqətul-islam ona da toxtaqlıq verib dedi: «Aram ol, bizim çəkəcəyimiz əzab iki dəqiqədən artıq olmayacaq, ondan sonra birdəfəlik əzab əziyyətlərdən xilas olacağıq».

Siqətul-islam və sair təbrizli azadlıqsevərlərin edam olunması bütün Azərbaycan xalqı üçün kədərli bir hadisə idi,

lakin Şeyx Məhəmməd Xiyabani üçün böyük bir hərəkatın başlanğıcı sayılırdı. Çünki o bilirdi ki, zahirdə məğlubiyyətə uğrayan bu qəmli hadisə öz ardınca Azərbaycan xalqına böyük qələbələr gətirəcək, düşmənlər və bədxahlar üçün rusvayçılıq və məğlubiyyət səbəbi kimi qeyd olunacaq.

## YENİ HƏRƏKATLAR

Harınlamış Avpona dövlətlərinin arasında ikinci dünya müharibən baş verdi və bu cərəyan yavaş-yavaş yaxın orta şərq ölkələrinə doğru genişləndi. Çox keçmədən islam ölkələri də bu müharibəyə qatıldılar. İstər-istəməz Türkiyə, İran, İraq, Əfqanistan, Tacikistan kimi ölkələrin hər biri müharibə ocağına çevrildi. Ruslar İranın şimal nahiyələrini işğal edərək Tehrana doğru hücuma keçmişdilər. 1294-cü ilin Aban ayında İranın müharibədə bitərəf mövqe tutduğunu elan etməsinə baxmayaraq, Rusiyanın təcavüzkar ordusu Qəzvin və Kərəc şəhərini işğal edərək Tehrana hücum planını hazırlayırdı.

O zamanda Əmməd şah çox çətin vəziyyətə düşmüşdü. Nə edəcəyini bilmirdi. Əvvəlcə Tehranın Ruslar tərəfindən işğal olunacağı təhlükəsini ehtimal verərək paytaxtı İsfahana köçürmək istəyirdi. Lakin sonra Rusiya və İngiltərə dövlətlərindən zəmanət alaraq bu fikrindən daşındı.

Ruslar İranın şimali və mərkəzi əyalətlərindən əlavə ölkənin şimali-qərb hissəsini də işğal etmişdilər. Azərbaycan uzun müddət Osmanlı ordusunun ayaqları altında əzildikdən sonra, neçənci dəfə idi ki, rus əsgərlərinin də çəkmələri altında çabalayıb inildəyirdi.

1294-cu ilin Fərvərdin ayında İranda müxtəlif cərəyanlar formalaşdı. Bundan əvvəl də Rusiya və İngiltərənin əleyhinə cihad hökmünü verən Nəcəf alimlərinə bu dəfə Qum alimləri də qoşuldu. Qumda da cihad elan edildi və bunun ardınca milli müdafiə komitəsi təşkil olundu. Mübarizənin

qabaqcılları silah yığmaq, milli və dini qüvvələri səhmana salmaq və işğalçı qüvvələrlə mübarizə aparmağa başlayırdılar. Rzaquluxan «Nizamus-səltənə» də Xuzistan, Loristan və Burucerdin hökmranı idi. O da işğalçılar əleyhinə mübarizəyə qoşuldu və müqavimət dəstələrinin komandanlığını öz öhdəsinə aldı. Digər tərəfdən Kermanşahda mühacirlər hökuməti təşkil olundu və onlar da bir ildən artıq müddətdə işğalçılarla mübarizəni davam etdirdi.

Cənubda mühacirlərin mübarizəsi ilə eyni zamanda İranın şimalında başqa bir hərəkat da yaranırdı. Gilan ruhanilərindən olan Mirza Kuçik Xan bu diyarın cəngavərləri müharibəyə səsləyərək meşələrə tərəf çəkildi. Rusiyanın təcəvüzkar qüvvələri müqabilində mübarizlərdən təşkil olunmuş böyük bir sədd yaratdı. Bu da ölkənin sair yerlərində mübarizlərin qüvvətlənməsinə səbəb oldu. Get-gedə rus qüvvələri öz zəifliklərini görüb məhv olmamaq üçün geri çəkilməyə məcbur oldular. 1917-ci ildə bolşeviklərin inqilabı da Rusiyanın İrandakı qüdrətinin zəifləməsinə çox böyük təsir göstərdi.

## İRAN UĞRUNDA MÜBARİZƏ

Qərb dövlətləri dünya müharibəsində məruz qaldıqları bütün xəsarətlərdə belə, müxtəlif sahələrdə imtiyazlar qazanmışdılar. Çünki xristian dünyasının bu müharibədə əldə etdiyi nailiyyətlər tarixin heç bir dövründə onlara nəsib olmamışdır. Bu illərdə qərb dövlətləri özlərinin ən qədim arzularına Osmanlı xilafətinin məhv edilməsi arzusuna nail olmuşdular. Onlar siyasi hiyləgərliklə islam ölkələrini kiçik dövlətlər şəklində bölmüş, həmin məntəqələrdə öz nüfuz dairələrini yaratmış və altı əsrlik səlib müharibələrində əldə edə bilmədikləri şeyləri qazana bilmişdilər. Hal-hazırda İran körfəzi hövzəsində yerləşən kiçik ölkələr, vaxtilə böyük islam xilafətinin tərkib hissələri olmuşlar ki, çox təəssüflə onlar hal-

hazırda islam və müsəlmanların düşmənlərinin, in mənafeyini təmin etməkdədirlər.

İkinci dünya müharibəsində, hətta ondan sonrakı dövrlərdə belə qərb və sair yad ölkələrin, ya dövlətlərin İrandakı siyasəti yalnız işğalçılıq xarakteri daşıyırdı. Əgər ingilislər o dövrdə İranın cənub bölgələrini bu diyardan ayıra bilsəydilər, ruslar da ölkənin şimalını və şimali-qərbini ayıra bilərdilər. Belə olsaydı, artıq hal-hazırkı böyük İran dövlətindən əsər-əlamət qalmayacaqdı. Şübhəsiz Şeyx Məhəmməd Xiyabani, Mirzə Kuçik xan və digər qəhrəman iranlıların fədakarlıqları və mübarizələrinin dəyəri də bu kimi tarixi dövrlərdə məlum olur. Onların apardıqları mübarizələrin əhəmiyyətindən əlavə, diqqət yetiriləsi məsələ, bu mücahidlərin son dərəcə düzgün və vaxtında başladıqları hərəkatlərdır ki, onlar da İranın, xüsusilə islamın qəhrəman övladlarının siyasi və ictimai şüur və düşüncəsinin göstəricisidir. Bunlar hamısı təqdirəlayiq işlərdir. Çünki, məşrutə hərəkatının qızğın çağında yadellilərin, şeytansifətlərin İranda nüfuzunu nəzərə alsaq, çox az adam tapılardı ki, həmin dövrə hakim olan siyasi şəraiti layiqincə təhlil edib araşdırsın düşmənlərin çirkin niyyətlərindən xəbərdar olsun. Mərz belə bir şəraitdə nə üçün mübariz, qəhrəman və mücahid şəxslərin tarixdə bəzən yersiz ittihamlara məruz qaldığını başa düşmək olar. Çünki, bizim əsil düşmənlərimiz hər bir şeydən məyus olduğumuz halda, öz müharibə planlarına yalnız belə şəxsiyyətləri ləkələməklə bəraət qazandıra bilirdilər.

Məşrutə hərəkatına və Azərbaycan xalqının qiyamına da bu cür yersiz töhmətlər vurulmaqdadır. Belə ki, Azərbaycanın İrandan ayrılaraq müstəqil dövlət təşkil etməsi, yaxud milətçilik və sair kimi ittihamlar, cahil tarix yazanların əsərlərində görükməkdədir ki, onların tarixi həqiqətlərlə şəxsiyyətlərin mübarizəsi ilə heç bir uyğunluğu yoxdur. Halbuki, Şeyx Məhəmməd Xiyabani kimi böyük rəhbərlərin

həyatının qərəzsiz və bitərəf şəkildə araşdırılması göstərir ki, bu böyük şəxsiyyətlərin yeganə iftixarı iranlı olmaq, İran ölkəsinin istiqlaliyyəti və yadellilərin işğalından xilas edilməsi olmuşdur. Tarixdən məlum olduğu kimi, bütün mübarizlər, xüsusi ilə Məşrutə hərəkatının mübarizləri, bu şüarları öz qəlblərinin dərinliklərindən verirdilər. İran, İran! Ey yaralı vətən! Sən qal, həmişə qal!

## ÜÇÜNCÜ FƏSİL

## XİYABANİNİN AYAQ SƏSLƏRİ

Təbrizin dar küçələrində sükut hər yerə hakim kəsilmişdi. Lakin qəlblərdən son məqsədə çatmaq üçün döyüntülər eşidilməkdə idi. Azərbaycanlılar öz tarixlərində çoxlu enişli-yoxuşlu yollar keçmişdilər. Amma bu dəfə vəziyyət və şərait o qədər mürəkkəb idi ki, heç bir şeyi qabaqcadan müəyən etmək olmurdu. Bir tərəfdən istismar və zülmkar rejimin ayaq izləri bu diyarın hər yerində görünməkdə idi, hər gün şəhərin meydanlarında qanına qəltan mübarizlərin cəsədləri tapılır, digər tərəfdən isə xain qruplaşmalar istədikləri şəxsə silah çəkib qanına qəltan edir, ictimai təhlukəsizliyi aradan aparırdılar. Qəhətlik də insanların taqətini üzürdü. Uşaqların, qoca arvad və kişilərin nalə səsindən başqa heç nə eşidilmirdi.

Bu məzlum xalq arasında pak, əsli-nəcabətli nəsildən olan bir kişinin əyilməz qaməti görünürdü. O bu nalələri yaxından eşitmək istəyirdi. Xiyabanini hər şeydən artıq incidən məsələ mübariz qrupların arasında vəhdətin olmaması idi. O dövrdə mübariz dəstələr arasında olan məxfi ixtilaflardan, bəzi hallarda həmin qruplara nüfuz etmiş xain şəxslərni varlığı vəziyyəti qat-qat ağırlaşdırırdı. Ehtimal verilirdi ki, mücahidlər müştərək düşmən müqabidində mübarizə aparmaq əvəzinə bir-birinin canına düşsünlər və vətəndaş müharibəsi başlansın. Belə olan halda Məşrutə inqilabının kitabı bağlanacaqdı. Şübhəsiz belə bir şəraitdə düzgün yol, Xiyabaninin öhdəsindən gələ bildiyi məsələlər barəsində düzgün mülahizələr yürütməkdən ibarət idi. Xiyabani dünyanın cari siyasi işlərinə yaxından agah olan, onları lazımınca təhlil edib qiymətləndirən bir şəxs idi. O, dünya müharibəsindən sonra başa düşmüşdü ki, insanların iman və iradəsi qarşısında heç bir sıra davam gətirə bilməz. O

ümumxalq kütlələrinin fikrini azdırmaq, onları yalnız müharibə texnikası ilə aldatmaq, istəyən ümumdünya təbliğatlarından tam agah idi və ən həssas şəraitdə belə, mücahidlərin onun ətrafını tutub ondan kömək istədikləri vaxt çalışırdı ki, silahlı mübarizədən əvvəl mövcud olan başqa yolları sınaqdan keçirsin. Çünki o, öz təcrübələrinə arxalanaraq inanırdı ki, silahlı mübarizə sonuncu çıxış yoludur. Digər tərəfdən Xiyabani bilirdi ki, bu cür qiyamın başlandığı qızğın şəraitdə daxildə olan təxribatçıların varlığı ilə belə, əvvəlcə hər gün müəyən adlarla ölkənin bir tərəfində qiyama qalxan dəstələri sıx birləşdirmək lazımdır. O, belə bir təfəkkür əsasında əvvəlcə özünün «Əncümən» adlı təşkilatını irəli sürdü. Uzun illərdən bəri tanıdığı həqiqi mücahidlərə arxalanaraq həmin Əncüməni təşkil etdi.

## ƏNCÜMƏNİN MAHİYYƏTİ

Birinci məclis görə nümayəndələrin seçkiləri ilə əlaqədar olan Təbrizdəki təşkilatlar «yerli heyətlər yaxud «məhəllə əncümənləri» adlandırılırdı. Sonralar özünə xüsusi forma alan bu heyətlər sair şəhərlərə də yayıldı. Təbrizdə yaranan biləcək ixtilafların qarşısını almaq və hakim heyətlər arasında vəhdət yaratmaq üçün əyalət əncüməni təsis edildi.

Əyalət əncüməninin işi müəyyən vaxtlarda yerli ənçümənlərin başçılarını oraya dəvət etmək, öz aralarında iclaslar təşkil etməkdən ibarət idi. Şeyx Məhəmməd Xiyabani bu iclasları təşkil edən və çıxışları çox təsirli olan şəxslər sırasında idi. O özü Təbrizin Xiyaban məhəlləsinin əncümənini təsis etmişdi. Amma əyalət əncümənində də fəal üzvlərdən biri sayılırdı. Mərz Xiyabaninin səyləri nəticəsində Təbrizin əyalət əncüməni ölkənin milli əncüməninə qoşuldu.

Milli əncümən üzvlərinin hər biri Məşrutə hərəkatının qələbəsi uğrunda mübarizə aparan şəxslər idi və onlar hakim dövlətin düzgün olmayan siyasətləri müqabilində müqavimət

göstərirdilər. Əncümənlərin arasında Azərbaycan milli əncümənin daha çox imtiyazı var idi. Üzvlərin səylərinin nəticəsinə görə, Təbriz əncüməni həmişə mübarizə mərkəzi kimi tanınmışdı. Xiyabaninin əncümәndə ifa etdiyi rol son dərəcə təsirli olduğundan, o, əncümәndəki altı illik fəaliyyəti müddətində həmişə öndə gedənlərdən olmuşdur.

Təbriz əncüməninin həftədə iki dəfə iclas təşkil etməkdən əlavə, xüsusi nəşriyyəsi da var idi ki, üç gündə bir dəfə çap edirdi. Bu qəzet əvvəlcə «Milli cəridə» daha sonra isə «Təcəddüdü əncümən qəzeti» adı altında çap olunurdu. O, İranda Məşrutə hökmünün verilməsindən sonra çap olunan ilk qəzet satılırdı. Əncümən üzvlərinin həftəlik yığıncaqlardakı apardıqları müzakirələr, onların faydalı məqalələri camaatı Məşrutiyyət, əsas və insani hüquqlarla tanış etməkdə böyük əhəmiyyət kəsb edirdi və bu qazet yüksək tirajla buraxılırdı.

## XİYABANİ VƏ BİR YOLUN BAŞLANĞICI

İran Məşrutə hərəkatı Xiyabanini azadlıqsevərlərə görkəmli bir şəxsiyyət kimi tanıtmışdı. Onun adı Azərbaycanın hər yerində dillərdə gəzirdi. Buna görə də Məhəmmədəli Mirzanın məğlubiyyətilə məşrutəçilərin qələbəsindən sonra ikinci milli məclis bərqarar olduqda Xiyabani Azərbaycan tərəfindən nümayəndə kimi məclisə seçildi. O, bir ruhani kimi camaatın siyasi məsləhətini qoruyub saxlanılması ilə eyni zamanda xalqın dini inanc və etiqadlarından doğan nigarançılıqları da diqqət mərkəzində saxlayır və bu kimi məsələləri ikinci məclisdə dəqiq şəkildə izləyirdi.

İkinci məclisdə nümayəndələr iki dəstəyə bölünmüşdü: Onlardan bəziləri «radikallar» adı ilə məşhur olaraq rusların məsələlərinə qarşı çox da əks-əməl göstərmirdilər. İkinci qrup isə radikalların düşüncə tərzinin əksinə olan solçular idi. Bu iki qrupun arasında sair məsələlərdə də ixtilaflar nəzərə

dəyirdi. Xiyabani qruplaşmanın tərəfdarı olmasa da və belə bir böhranlı şəraitdə məclis nümayəndələrinin bir-birinin canına düşüb çarpışmasını problemlərin həllində məntiqli bir yol hesab etməsə də, parlamentin Rusiya dövlətinin ultimatumu qarşısında sərt mövqe tutub müqavimət göstərməsinə səbəb oldu.

Rusiya İrandakı nüfuzunu qoruyub saxlamaq üçün həmişə İranı öz qüdrəti ilə qorxutmağa çalışırdı. Bu məsələ ilə əlaqalar olaraq yenidən aşağıdakı məzmunda ultimatum vermişdi:

1- Mister, Şuster və Lekufer İranın siyasi işlərindən uzaqlaşdırılmalıdır.

2- İran Dövləti bundan sonra xarici ölkələrlə həmkarlıq etmək üçün Rusiyanın xəbəri olmadan bir kəsi dəvət etməməlidir.

3- İran Rus ordusunun Rəşt və Ənzəli arasında nəql və daşınmasının büdcəsini öz öhdəsinə almalıdır.

Bunun sonunda Rusiya İranın müsbət cavab verməsi üçün 48 saat vaxt vermişdi. Ultimatumun qəbul olunmayacağı təqdirdə İrana yenidən hücum etməklə hədələmişdi. Rusiya güman edirdi ki, bununla İrandan yüksək imtiyaz ala biləcəkdi, lakin onlar ultimatumun İranda böyük bir partlayışa səbəb olacağından qafil idi. Rusların təsəvvür etdiyinin əksinə olaraq, İran camaatı əsla bundan qorxu və vəhşət hissi keçirmədi, əksinə Tehran, Rəşt və Təbriz kimi şəhərlər yadellilərlə müharibə aparmaq üçün hazırlaşdılar.

Günortaya bir saat qalmış milli məclisin iclası təşkil olundu. Nümayəndələr məclisə toplaşdılar. Xarici işlər naziri Həsən Vəsuq rus səfirliyinin ultimatumunu nümayəndələr üçün oxuyaraq bu barədə rəy sorğusu keçrilməsini istədi. Lakin şura məclisi tam şücaətlə onun qarşısında duraraq qəbul etmədi. Nümayəndələrin bəziləri bu iclasda fəryad etdilər. O cümlədən Şeyx Məhəmməd Xiyabani, Şeyx İsmail Həştrudi və Şeyx Riza Dehxarqani də fəryad etdilər, lakin bu böyük

insanların fəryadları heç kəsin qulağına çatmadı. Çünki dövrün hakimiyyət orqanları məclis və millət vəkillərinə qarşı tam etinasızlıq göstərərək həyasızlıqla Rusiyanın verdiyi ultimatumu qəbul etmişdi! O gecə aldanmış nümayəndə və vəzirlərin çoxu özlərini mötədil adlandırdıqlarına baxmayaraq, bir yerə toplaşıb dövlətlə həmrəy olduqlarını bildirdilər. O gün əvvəlcə Vüsuqud-dövlə (xarici işlər naziri) danışaraq ölkədə baş verən siyasi məsələləri bəyan etdi. Milli şura məclisi nümayəndələrinin dövlət qarşısında müqavimət göstərməsini tənqid etdi. Daha sonra əvvəlcədən nazirlərin hamısının imzası ilə hazırlanmış bəyannaməni Nasirul-mülkə verdilər. Bu bəyannamədə Rusiyanın verdiyi ultimatumun ziddinə olan təfəkkür tərzi məzəmmət olunmaqdan əlavə, demokrat partiyası da tənqid atəşinə tutulmuşdu. Axırda Naibus-səltənədən istəmişdilər ki, milli şura məclisini buraxılmış elan etsin. Bu iş də onun istədiyi kimi yerinə yetirildi. Beləliklə birinci məclisdə olduğu kimi, ikinci milli məclis də buraxıldı.

Məclis buraxıldıqdan sonra Xiyabani Tehrandan Azərbayçana doğru hərəkət etdi. Amma bu dəfə çox narahat və qəmgin idi. Çünki ultimatumun qəbul edilməsi elə bir vaxtda baş verirdi ki, hələ Azərbaycanda faciəli qırğından bir neçə ay keçməmişdi, hələ də əhalinin əksəriyyəti Rusiya zabitləri tərfindən edam olunan Siqətul-islam və onun səkkiz nəfər vəfalı köməkçilərinin matəm köynəyini çıxarmamışdılar.

Xiyabani bir neçə gündən sonra Tehranın Səbzi meydanında təşkil olunan izdihamlı nümayişdə iştirak edərək bir saat yarım Rusiyanın ultimatumu barəsində camaata söhbət etdi. Xiyabaninin sözləri birbaşa mərkəzi dövlətin ünvanına istiqamətlənmişdi. Digər tərəfdən də bu çıxış camaat üçün bir növ xəbərdarlıq idi ki, onlar Məşrutə üçün uzun illər əzab-əziyyət çəkib müxtəlif bəlalara dözərək ağır itkiləri vermişdilər. Bu sözlər öz mövqelərini qorumaq üçün

nökərçilik etmək fikrində olan dövlət səviyyəli adamlara çox ağır oturdu. Onlar öz qərarlarına bir daha diqqət yetirib ona düzəliş vermək əvəzinə Xiyabaninin tutulması hökmünü verdilər. Dövlət məmurları xarici işlər nazirinin göstərişi ilə Xiyabaninin və onun sair həmfikirlərinin tutulması üçün Səbzi meydanına gəldilər.

Xiyabani bu çıxışdan sonra dərhal oranı tərk edərək dövlət tərəfindən göstərilən təzyiq və təhdidlərə əhəmiyyət vermədən öz evinə gedir. Mötəmidud-tüccar Xiyabaniyə belə təklif irəli sürür ki, gecə onun evində qalsın. Xiyabani öz ailəsinin intizarda qaldığını bahanə edərək evə getməli olduğunu bildirir və deyir ki, mənim tutulmağım həm özümə, həm də onlara çoxlu narahatçılıqlar yarada bilər. Lazım olan şeylərin hamısını mən demişəm. İstədiklərim də həyata keçmişdir. Mənim məqsədim camaata bu ultimatum barəsində agahlıq verməkdən ibarət idi ki, o da həyata keçdi.

Rusiyanın tələblərinin İranın mərkəzi dövlət tərəfindən qəbul olunması ilə eyni zamanda məclis buraxılmış elan edildi. Xiyabani bir neçə ay Tehranda qaldıqdan sonra qohum əqrəbalarını görmək məqsədi ilə Məşhəd şəhərinə səfər edərək orada üç ay qaldı. Daha sonra qayıtmaq barədə qərara gəldi. Lakin şəhərlər arası yollarda hərci-mərcliyin hakim olduğu və təhlikə ilə üzləşdiyini gördükdə İrandan çıxaraq Aşqabada getdi. Aşqabaddan Bakıya, daha sonra Tiflisə gedib orada bir müddət qaldıqdan sonra qatar vasitəsi ilə Təbrizə qayıtdı.

Ultimatum hadisəsindən sonra Xiyabani anlamışdı ki, yaranan şəraitdə yalnız mərkəzi dövlət müqəssir sayılır. Amma diktator dövlətin əsil mahiyyəti, məclis, xalq və qanun şüarları altında gizlənərək avam camaat üçün hiss olunmaz dərəcədə məxfi olduğundan Xiyabaninin çətinlikləri iki qat artmışdı. Xiyabaninin Təbrizə gəlməsi ildırım sürəti ilə Azərbaycanın hər yerinə yayıldı. Məşrutə hərəkatında çoxlu xəsarətlər görən şəxslər qısa müddət ərzində Xiyabaninin ətrafına yığışaraq, onu himaya etməyə başladılar.

O dövrdə mərkəzi dövlətin Azərbaycandakı nümayəndəsi Səmədxan aldı bir şəxs idi. O, savadsız və ətrafında baş verən siyasi məsələlərə qarşı cahil bir şəxs oldğundan yadların əlində camaatı əzmək üçün bir vasitə sayılırdı. Mərkəz ona çox asanlıqla istədikləri işləri gördürə bilirdi.

O, fəxri «şücaud-dövlə» adını almaqla ruslara bağlı olan ünsürlərin əmrlərinə itaət edirdi. Çünki, istər azadlıq istəyələrin Təbrizdə dara çəkilmə hadisəsində, istərsə də azərbaycanlıların sonrakı insilabi hərəkatlərində Səmədxan camaatın qarşısını kəsib onları amansızcasına əzib gülləboran edən ilk şəxs idi. Məşrutə hərakatında bu şəxs o qədər xəyanət və cinayət etmişdi ki, uzun illər keçməsin baxmayaraq, onun törətdiyi cinayət və xəyanətlər camaat arasında dillər əzbəri idi. O, çoxlarının başını kəsmiş, çoxlu günansız insanları nahaq yerə öldürmüş, zindanlarda məhbus olan şəxslərə olmazın işgəncələr vermiş, hətta camaat arasında quldurluqla da məşhur olmuşdu.

## ÇƏTİNLİKLƏR DÖVRÜ BAŞLANIR

İran xalqının tarixində «kiçik diktatura» adlı qısa bir müddətdə çoxlu hadisələr baş vermişdi. Bununla eyni zamanda bu xalqın taleyi də bu dövrdə öz həssas mərhələlərini keçmişdi. Müzəfərəddin şahın vasitəsi ilə Məşrutiyyət fərmanı verildikdən sonra, oğlu Məhəmmədəli şah İranın hakimiyyətini ələ aldı. O məşrutiyyəti qəbul etmirdi. Əvvəldə qeyd olunduğu kimi, birinci məclisi top atəşinə tutduqdan sonra onu buraxılmış elan etdi. Onun bütün tədbirlərindən məqsəd, İranı Məşrutə hərəkatından əvvəlki vəziyyətə qaytarmaq idi. Lakin bu diyarın böyük din alimlərinin, mücahid şəxsiyyətlərinin göstərlikləri fəaliyyətlər, onu öz hədəfinə çatmaqda nakam qoydu. Məhəmmədəli şahın Məşrutə qanunları ilə müxalifət xəbəri yayıldıqdan sonra İranda iğtişaşlar, həyacanlar başlandı və

ölkənin hər yerini qiyamlar bürüdü. Əksər hallarda bu qilamların rəhbərləri din alimləri, dərrakəli və dindar şəxslər idi.

Azərbaycan mübarizlərinin rəhbərliyini öhdəsinə alan Şeyx Məhəmməd Xiyabaninin ən ümdə və mühüm məqsədi bu mübarizləri düzgün istiqamətləndirmək olmuşdu. Hakim rejimə bağlı olan ünsüzlər, o cümlədən Eynud-dövlə, Rəhim xan və Böyük xan çar Rusiyası ilə gizli əlaqə yaratmaqla yanaşı, mübarizə meydanında da çoxlu problemlər yaratmışdılar. Bəzən hətta müəyən qərəzli şəxslər tərəfindən İranda millətçilik əhval ruhiyəsi icad etmək və bununla da bəzi xalqlarda öz böyük ölkəsinin taleyinə qarşı laqeydlik hissi yaratmaq istəyirdilər. Lakin böyük mütəfəkkir və dindar siyasətçilərin varlığı ilə həmin mübarizələrin həqiqi yolundan çıxmasının və nəticəsiz qalmasının qarşısı alınırdı.

Şeyx Məhəmməd Xiyabaninin ən böyük xidmətlərindən biri də onun İran xalqının hüquqlarının alınmasında xalis niyyətlə hərəkət etməsi idi. Məşrutə hərəkatının qəddar düşməni sayılan Eynud-dövlənin əlləri biləyə qədər millətin qanına bulaşmışdı. Bu dəfə də o, Məhəmmədəli şahın tərəfindən Təbrizdə Məşrutə hərakatının mübarizlərini məhv edib əzmək üçün tapşırıq alaraq bu şəhərə gəlmişdi. Bu nadan şəxs başa düşə bilmirdi ki, Təbriz şəhəri Məşrutə hərəkatına rəhbərlik edən şir ürəklilərin o cümlədən Səttarxan, Baqirxan və bu kimi digər şəxslərin vətənidir.

Eynud-dövlə Təbrizə gələrkən əvvəlcə riyakarlıqla, pul təklif etməklə, eləcə də əyalət əncümənlərinə nümayəndə göndərib Səttarxan, Xiyabani və sair əncümən üzvləri ilə müzakirə aparmaq yolu ilə məşrutəçilərin ayıq və azad fikirli rəhbərlərini aldadaraq Məhəmmədəli şəfa təslim etdirmək istəyirdi. Lakin o, öz hiylə və məkrlərinin nəticə verəcəyindən məyus olduqdan sonra qəfildən hücum edərək Təbrizi dörd tərəfdən tutdu. Şəhərin hər tərəfi yanmağa, qanlar axmağa başladı, daxin bütün bunlarla yanaşı Eynud-dövlənin otuz min

nəfərlik silahlı qoşunu Təbriz məşrutəçilərinin müqabilində son dərəcə rüsvayçılıqla məğlub oldu. Quranın vədə verdiyi kimi, Allahın kömək və nüsrəti şəxslərin halına şamil olur ki, onlar Allah dininə kömək etsinlər.

O gün Xiyabani bir mübariz ruhani kimi Allaha ümidvar olaraq səngərdə, döyüş meydanında, müqəddəs libasında çiynində tüfəng, dilində Quranın cihad ayələrini zümzümə edərək sair döyüş yoldaşları və Təbrizin şir ürəkli qəhramanları ilə birlikdə azadlıq düşmənlərinə qarşı müqavimət göstərdi. Eynud-dövlənin Təbriz məğlubiyyətindən sonra Məhəmmədəli şahın yeganə çıxış yolu məşrutəçilərin qələbəsini qəbul etmək idi. Ona görə də o, İran Məşrutə hərəkatını qəbul edib, bir daha milli məclisin təşkil olunmasına razılıq verdi.

## XİYABANİ TƏBRİZDƏ

Milli şura məclisinin buraxıldığı dövrdə İranın heç bir məntəqəsi Azərbaycan kimi şiddətli nəzarət altında deyildi. Bir tərəfdən rusların istilaçılıq siyasətləri, digər tərəfdən isə ruslara bağlı olan dövlət nümayəndəsi Səməd xanın törətdiyi qırğınlar camaatın işini olduqca çətinləşdirmişdi. Buna görə də Xiyabani bir müddət məxfi şəkildə fəaliyyət göstərmək məcburiyyətində qalmışdı. Belə ki, o, zahirdə Təbrizin bazarında ticarətlə məşğul olur, lakin öz evində yaxın sirdaşları ilə müntəzəm surətdə iclaslar təşkil edərək real şəraitdən çıxış yolu axtarırdı. O, həftəlik iclaslar təşkil etməklə yanaşı dini tədrislə də məşğul olur, islam fəlsəfəsi, ərəb ədəbiyyatı və siyasi məsələləri araşdırır, tələbələrə siyasi agahlıq verirdi. Sonralar müxtəlif təşkilatlarda, o cümlədən «Nezəti Azərbaycan», «Azadi-xahan» və «Demokratlar partiyası»-nda fəaliyyət göstərən şəxslərin çoxu şəhid Xiyabaninin ideyasından təsirlənmişlər.

Xiyabani məclisin buraxıldığı beş il müddətində Azərbaycanda çox güclü və geniş miqyaslı təşəkküllər yaratmışdı. Onun səyləri nəticəsində əyalət məclisi «Əyalət konfransı» adı ilə Təbrizdə təşkil olundu ki, orada Təbriz və sair şəhərlərlərdən olan dörd yüz səksən nəfər nümayəndə iştirak edirdi. Onlar ölkədə baş verən cari məsələlər barəsində fikir mübadiləsi edirdilər.

Xiyabani əyalət komitəsi icad etməkdən əlavə, hər əyalətdən bir nimayəndə üzv olmaq şərti ilə «Təcəddüd» qəzetini nəşr etməyə başladı ki, bu da həmin dövrdə ümumxalq təfəkkurünü inkişaf edib formalaşmasında layiqli rol ifa edirdi. Azərbaycanda təhlükəsizlik məsələləri və jandarma taşkilatı da onun düzgün fikirlərinin nəticəsi idi ki, çox qısa müddət ərzində Seyyid Hüseynxan Yavərinin başçılığı ilə beş yüz nəfərə yaxın qüvvə toplaya bilmişdi. Lakin Osmanlı ordusunun İrana soxulması və Azərbaycanı işğal etməsi ilə jandarma təşkilatı öz məqsəllərinə nail ola bilmədi. Xiyabaninin əsil məqsədi Rusiya, Osmanlı dövləti və mərkəzi dövlət kimi düşmənlərin qarşısında təhlükəsizliyin təmin olunması üçün müqavimət cəhbəsi yaratmaq idi ki, qeyd olunan dövlətlərin hər biri İranda öz mənafeyinin təmin olunması üçün cürbəcür təxribatçılıq işləri aparırdılar.

## BÖYÜK TÜRKÜSTAN İDEYASI

Osmanlılar iki min nəfərlik hərbi qüvvə ilə Təbrizə daxil olub bu şəhərin ən həssas və mühüm mərkəzlərini işğal etdilər. O il İranda quraqlıq və qəhətlik baş verdiyindən Azərbaycanın da vəziyyəti sair məntəqələrdə olduğu kimi, çox ağır idi. Osmanlıların bu şəhərə daxil olması vəziyyəti daha gərginləşdirirdi. Osmanlılar küçə və bazarlarda, xiyabanlarda minlərlə uşaqın acından ölməsini, qəhətliyin, aclığın hər yeri bürüdüyünü müşahidə etmələrinə baxmayaraq bu məsələlərə etinasızlıqla Təbriz anbarlarına hücum edərək

olan-qalan taxılın hamısını qarət etdilər. Halbuki, dövlət onlara müəyyən qədər taxıl verməyi qərara almışdı. Bunu ona görə etmişdi ki, osmanlılar qarətçilik siyasətindən əl çəksinlər. Lakin onlar bu qərara əhəmiyyət vermədən öz qarətçiliklərini davam etdirirdilər. İş o yerə çatdı ki, Təbriz əhalisi qısa müddət ərzində İranın ən fəqir camaatına çevrildi. Osmanlılar Təbrizdə öz mövqeylərini möhkəmləndirmək üçün müsəlman türklər arasında bəzi satqınları ələ alaraq «İttihadi İslami Cəmiyyəti» adı altında bir partiya yaratdılar. Yusif Ziya adlı bir nəfər osmanlıların himayəsindən istifadə edərək Azərbaycanda türk-fars məsələlərini ifrat dərəcədə işıqlandırıb milli ədavəti qızışdırmağa başladı. Osmanlı türkləri də öz daxili siyasətləri də cəmiyyəti mənfur niyyətlərinə doğru çəkməyə başladılar. Az bir zamanda İran-Turan məsələsi ortada atıldı. Yusif Ziya çalışırdı ki, iranlıların müqabilində turanlılar məsələsini irəli çəkərək əslində osmanlıların ideyası olan böyük Türküstan məsələsini həyata keçirsin. Bu məsələ də şübhəsiz Azərbaycanın İrandan ayrılması ilə həyata keçə bilərdi. Bir tərəfdən osmanlıların hərbi təcəvüzü, digər tərəfdən isə islami cəmiyyətin apardığı geniş təbliğatlar İranın parçalanmasına tam zəmin yaratmışdı. Türklərin hərbi yuniformunun gətirilməsi, azərbaycanlı silanlıların arasında təbliğat aparılması, «türkcə fikirləş» şüarı, özlərini türk ziyalıları adlandıran şəxslərin vəzifəyə seçilməsi yaranan qarışıq fəzadan və İrana hakim olan bədbəxtçilik və təfriqə yollarından istifadə edərək (bir növ suyu bulandıraraq balıq tutmaqla) böyük İran ölkəsini xırda hissələrə parçalamaq məqsədini güdürdü.

Şeyx Məhəmməd Xiyabani var qüvvəsi ilə osmanlı türkləri müqabilində sinə gərdi. Günbəgün Məşrutə hərəkatına xəyanət edərək camaatın avamlığından sui-istifadə etmək məqsədində olan şəxslərin ideologiyası ilə müxalifətini aşkar etdi. Xiyabani və onun iki silahdaşı mərhum Novbəri və Badamçi iki ay müddətində osmanlıların həbsxanasında

qalsalar da, nəticədə osmanlı əsgərləri Azərbaycanı tərk etdilər. Əsir aparılmış azəri mübarizləri, o cümlədən Xiyabani və onun silahdaşları Türkiyədən İrana qayıtdı və yenidən Təbriz mübarizə səhnəsinə çevrildi. Lakin düşmənlərin məkrli planları yenə də davam etməkdə idi. Osmanlıların İrandan çıxmasından sonra İngilislər hələ də İranda qalmaqda idi. Məşrutəçi inqilabçıların müqabilində sərt mövqe tutan osmanlılara bağlı olan ünsürlər bu dəfə ingilis konsulluğuna pənah apararaq, onlardan kömək istəməklə mübarizlərin hərəkatını boğmaq yolunda səy göstərirdilər. Çünki osmanlıların tərəfdarları Azərbaycan mübarizlərinin Tehranlı mübarizlərlə müttəhid olmasına deyil, həmişə Azərbaycanın İrandan ayrılmasının tərəfdarı idilər.

## AZADİSTAN

Azadistan ideyası o zaman yarandı ki, bəziləri camaatın məlumatsızlığından sui istifadə edərək hər gün avam camaatı aldatmaq üçün müxtəlif şüarlardan, cərəyanlardan istifadə edirdilər. Pantürkizm də həmin şüarlardan biri idi. Əlbəttə qeyd etmək lazımdır ki, panturkizm Xiyabaninin dövründə yaranan bir məsələ deyil, əksinə bu cərəyanın kökləri 19-cu əsrin əvvəllərinə gedib çatır. Belə ki, xarici istismarçılar və imperialistlər osmanlı imperiyasının qüdrətli bir dövlət olduğunu gördükdə bu böyük dövləti daxildən parçalamaq fikrinə düşdülər. Modern türklər məsələsini irəli çəkərək, bu işi həyata keçirməyə başladılar. Əvvəlcə Sultan Səlim, ondan sonra ikinci Sultan Mahmud da orduda, eləcə də ictimai-siyasi sahələrdə islahatların bünövrəsini qoyan şəxslərdən sayılırlar. Bunu da demək olar ki, Sultan Mahmudun dövründə modern türklərin əsas məkirli mahiyyəti hələ də aşkar olmamışdı. Sultan Marmud və başqaları yalnız ordunun gücləndirilməsi, cəmiyyətin inkişaf etdirilməsini istəyirdilər, amma istər-istəməz qərbə doğru gedirdilər. Bu siyasətlərin ardınca pərdə

arxasında məkirli planlar yatırdı ki, bir əsr keçdikdən sonra Atatürkün hakimiyyətə gəlməsi ilə həmin məkirli planlar özünü göstərdi. Lakin Xiyabani üçün bu hadisələr və məkirli siyasətlər tamamilə aşkar idi. o 1908-ci ildə Sultan Əbdulhəmidin qətlə yetirilməsi və türklərin hakimiyyətə gəlməsini yaxşı xatırlayırdı, yadellilərin, xüsusilə də ingilislərin gizli planlarından agah idi.

Xiyabaninin Osmanlı türkləri müqabilində göstərdiyi əks-reyaksiya dəqiq şəkildə onların zahirən avam, həqiqətdə isə son dərəcə aldadıcı siyasət və məqsəllərinin müqabilində müqaviməti idi. Hətta Xiyabani bunu da bilirdi ki, onlar üçün islam məsələlərinin ortaya atılması avam camaatı aldatmaq üçün pərdədən başqa bir şey deyildir. Çünki o, pərdə arxasında bu planları hazırlayan məxfi şəxslərdən agah idi. İstismarçıların acı rişxəndli əməllərini, vaxtaşırı ərəbləri həmin şüarlarla aldatmasını, ərəbizim məsələsini ortaya atmaqla geniş miqyaslı ərəb ölkələrini kiçik yağlı tikələrə ayırdığının şahidi olmuşdu. O, heç da unutmamışdı ki, istismarçıların həmin məkirli siyasətlərinin nəticəsi kimi sionist toxumu həmin böyük ərəb dövlətinin qəlbində səpilmiş və həmişəlik olaraq həmin məntəqələrə hakim kəsilmişdi. Buna əsasən Xiyabaninin Azərbaycan məsələsində də əks-reaksiya köstərməsinin məlum səbəbləri və tarixi kökləri var idi. O, Azadistan məsələsini irəli çəkməklə Azərbaycanın İranla sıx rabitələrini bərqərar etdi. Məhəmmədəli Mirzə kimi diktatorun İranda və Azərbaycanda hakimiyyətini xatırlalaraq mübarizənin özünün əsl siyasi səhnəsindən yayınmaması xabardarlığını elan etdi. Onun bu barədə nigarançılıqlarından irəli gələn ideyasını da yazılarından birində aşkar şəkildə görmək olar. İnqilabın qızğın şəraitində və o unudulmaz günlərdə Azərbaycan övladları əvvəldə göstərlikləri rəşadət və şücaətlə yenə də fədakarlıq meydanlarını boş qoymadılar. Onlar öz vətənlərinin ittihadını qoruyub saxlamaq üçün qanlarını verməkdə bir-birindan irəli keçərək sinə gərirdilər.

Onlar başa düşürdülər ki, yadellilərin, kinli düşmənlərin müqabilində dayanmaq, ölüb-öldürmək, inqilab və təkamul mərhələsini axıra çatdırmaq lazımdır. Bu ölkədə baş verən kütləvi qırğınlar, ağır xəsarətlər zülm və sitəmlər, istiqlaliyyət və Azərbaycanın azadlığı uğrunda mübarizə aparanları heç vaxt sarsıda bilmədi. Daxili və xarici düşmənlərin hamısı öz mənfur niyyətləri əsasında bu yaralı ölkənin müxtəlif nöqtələrində dar ağaçları quraraq ölkənin qeyrətli övladlarını bir-bir udur, zülmün, diktaturanın və istismarın qara kölgəsini bu qana boyanmış ölkənin hər yerinə hakim kəsmək istəyirdilər. Lakin yüksək əhval-ruhiyyəli cavanlar, qəhrəman qoçalar zülmün, istibdadın qovğa etdiyi bir zamanda özlərinin əyilməz qamətləri ilə zülm və sitəm dünyasını öz ayaqları altında gördülər. Vətənin mərd oğulları öz pak və açıq alınları ilə, öz nifrət dolu baxışları ilə zülm və cəfa ilə dolu olan şəxslərə nəzər salırdılar, öz əyilmiş, bükülmüş belləri ilə asimanla yerin arasında düz, əyilmədən gəzir, müqavimətin fəzilətini təcəssüm etdirir, onların ağ saqqalları əbədi olaraq qatillərin üzünu qara edirdi.

Tarix boyu öz həyatlarını fədakarlıqla yaşayan, azadlığa, həqiqətə çanlarını fəda edən azərbaycan övladları arasında məsum, pak uşaqları da tapmaq olardı ki, dar ağacları onların boğazlarının zərif əzələlərinin yığılıb açılmasını, hədəqələrindən çıxmış gözlərini, göyərmiş dodaqlarını, üzülmüş boğazlarını görərək nalə edirdi.

İnsanın təsəvvür edə biləcəyi bütün müsibətlər, dərdlər, işkəncələr, ehtimal verilə bilən hər bir şey ardıcıl olaraq Azərbaycanın qorxulu tarixində nəzərə çarpırdı. Müharibə və müharibəni törədənlər xarici və daxili düşmənlər bu qəhrəman və şücaətli ölkənin hər bir yerində at oynadırdılar. Ən ağır cinayətlər, təcavüzkarlıqlar bu vətənin nazənin qəlbini şumlayırdı. Qalib və məğlub qoşunların yandırıcı, həqiqi odları abadlıqları xarabalıqlara, gül təpələrinə çevirirdi. Düz-çörək tanımayan ünsürlərin şüursuz qılıncları Azərbaycan

qızlarının canlarına ağır zərbələr vurmuşdur ki, onların qızıl qanına boyanan dodaqları heç vaxt sükut etməz.

Hələ də Azərbaycanın qanı axmaqdadır. Bu gün Tehranın mərhəmətli nəzəri Azərbaycana dikilmişdir, uzaqdan nəvazişli gözləri ilə onun qızıl qana boyanan bədəninə nəzər salır. Tehranın qələm və dili bu nisgilli diyarın qəmli-kədərli vəziyyətini şərh edir. Danışığında və qələm yazarlarında təşəkkur və minnətdarlıq gəlmələri sezilir.

Ey Azərbaycan, bu müqəddəslik və təqdirəlayiq işlər sənin bu yolda verdiyin saysız-hesabsız şəhidlərin qanlarıdır. Bu, həmin əbədiyətə qovuşan cavanların, müdrik qocaların, məsum uşaqların və ismətli qız-gəlinlərinin nalələridir ki, İranın sonsuz üfüqlərində bu müqəddəsliyi tərənnüm edir. Bu eşitdiyin səslər də elə onların səsləridir. Oyan, qulaq ac! Ey Azərbaycan, ey Azərbaycan demokratiyası, başını qaldır! Bu gün fəlakət girdabında qərq olmusan, qəlbinə sancılan müsibətlər köksünə elə ağır zərbələr endirmişdir ki, ona dözməyə taqətin qalmamışdır. İndi sən, ən ağır şəraitdə düşmənlərə möhtac olub can verən halda çabalayırsan.

Bu qışın sərt soyuqları üryan çisminə öldürücü zərbələr vurur. Sən pərişan, həyacanlı, ac-yalavac və xainlərə möhtacsan! Çox ağır bədbəxtliyə düçar olmusan. Müharibədə iştirak edən ölkələr sənin qədər xarlıqa və zillətə, günahkar millətlər sənin qədər işgəncə və əzaba giriftar olmamışlar. Dünyanın cəzaya layiq olan ən asi xalqları nicat tapdılar, sən isə hələ də giriftarsan. Başdan-ayağa yaralısan, buna baxmayaraq yenə də öz abırlı başını qaldır. Vətən qətligahından eşidilən səslərə qulaq as, qoy bu səslər sənin qəlbinin dərinliklərində bir fırtınalı tufan yaradaraq, səni qəflət yuxusundan oyatsın. Çünki sən indi yaralı bir aslan, can verən bir qəhrəmansan. Səni yenidən qeyrətə gətirmək üçün qeyrət damarına toxunmaq ən yaxşı çarə yoludur.

Sən özünün ilkin yardımçısan, sən özünə mütləq nicat verəcəksən. Hərgah öz daxilində olan həyat cövhərini, tədriclə

sönməkdə olan atəşi bir daha şölələndirməsən, artıq sən, əvvəlki qeyrət və şücaət simvolu ola bilməzsən. Əgər o parlaq cövhərdən, qeyrət damarlarında qaynayan mərdanəlik heybətindən bir əsər-əlamət qalmışsa, onda parlaq üfüqlər sənin qarşındadır. Öz arzularına çatacağın belə bir gün sənə mübarək olsun!

Ey Azərbaycan demokratiyası! sən yenilik və təkamul səhnəsinin yeganə qəhrəmanısan. Sən təcrübələr görmüş və tarixin ağır sınaqlarından başıuça çıxmısan, indi isə sənin qarşında yeni bir mərhələ açılır. Sən bu fədakarlıqların necə də əzəmətli bir səmərə verdiyinin şahidi olmusan!

Əzilib doğrandın, qızıl qanın axıdıldı, nəfəsin qaraldı, lakin indi öz həqiqi məqsədinə doğru açılan bir da başındasan. Sənin müqavimət göstərib sinə gərməyinin nəticəsində çox güclü olmalarına baxmayaraq zülmlər, işgəncələr, edamlar, qandallar bütünlüklə məhv olub aradan gedəcəkdir.

Yadelli işğalçılar, onların vətən daxidindəki xain sənin nökərləri hər biri cəzasını alaraq məhv olacaqlar. Hədə-qorxular, təhdidlər, mühasirələr, kütləvi qırğındar sənin sinəni yardı, var-yoxunu talan edib ölkəni viran qoydu, lakin sən onların qarşısında boyun əymədin. Yıxıldın, inildədin, lakin hər dəfə yeni bir qüvvə ilə ayağa qalxdın. Ayağa qalxıb müqavimət göstərdin, hadisələr sənin güclü iradənin üstündən dalğa kimi aldayıb keçdi, lakin onların məhv olub aradan getməsindən sonra sən yenidən dirçəlib yaşadın. Həyatın o dövranı səndən fədakarlıq edib qan verməyini istədi, sən də onları açıq ürəklə vətənə fəda etdin. Vətən səndən hərəkatlar, inqilablar, qiyamlar, üsyan və müharibələr istədi, sən onların hamısına dözdün. Suyu sənin üzünə bağladılar, çörəksiz, ac-yalavac qaldın, lakin öz məramında sədaqətli olub onu hər şeydən uça tutdun, istibdadı məhv etdin.

Bu taxribatçı bir əməliyyat idi, sən isə köhnəlib min bir yerdən yırtılmış uçuq binanı öz qanınla yerlə yeksan etməli idin, onu da etdin. Bu iş də atəşə, qana, polada möhtac idi.

Belə bir zamanda vətən maddi qüvvələr və əzələ qüdrəti tələb edirdi ki, onu da bu yolda qurban etdin. Bu gün həmin xaraba qalmış əsərlər və mövcud viranlıqlar əzab əziyyəti, məşəqqətləri, kəskin ehtiyacları, saysız-hesabsız tələbləri, mövcud fəlakət və dərdləri sənə xatırladır. Bir tərəfdə də mərkəzi mətbuatın səsini, başqa sözlə, vətənin nurani fikirlərinin bəyan edənlərini səsini eşidirsən, onlar sənin nəcabətli fəzilətlərinə «əhsən» deyirlər. Bu ibrətamiz mənzərələrin qabağında bir anlığa özünə gəlib dərindən fikirləşməyinin vaxtı artıq gəlib çatmışdır.

Əgər sən Azərbaycan demokratiyasısansa, maddi qüvvələrini, inqilabçı və mübariz əzələlərinin qüdrətini hazırlarıb onlardan istifadə etmisənsə, İrandakı məşrutə hərəkatının əndamını qızılı rəngə boyayıb möhkəmlədən qan sənin qeyrət damarlarında cuşa gəlibsə, onda gərək İranda icra olunmağa başlanmış islahat işləri səni də lazımi işgüzar fəaliyyətlərə vadar etsin. Dağıtmaq çox asan idi. İndi isə dağıntıları təmir edib abadlaşdırmaq vaxtıdır. İstibdadın əleyhinə qiyam etməyin, yadellilərin istilası qarşısında müqavimətin, daxildəki xainlərlə amansız mübarizə aparmağın, şücaət, qeyrət və mərdanəlik göstərməyin vaxtıdır. Bu hislərin hamısı sənin pak övladlarının qəlbində vardır. Sadiq arzuların, istedadların təsəvvür mərhələsindən əməl meydanına gətirilməsi istibdadın, zorakılığın kökünün kəsilməsi güç, müqavimət və mərdanəlik tələb edir. Bunların da hamısı sənin pak vücudunda əmanət qoyulmuşdur.

Bu gün keçmiş əzab-əziyyətlərdən bəhrələnməyin vaxtı gəlib çatmışdır. Dünənki xarabalıqların üzərində sabahın gözəl imarətlərini qurmaq lazımdır. Bu imarətlərin də yüksəldilməsi yüksək səviyyədə təfəkkür qüvvəsini tələb edir. Gələcəyi düzgün görmək, dərindən fikirləşib yolu seçmək, yenilik icad edib quruculuğa zəmin yaratmaq və s. Bu kimi mütərəqti fikirlər zahiri gözlərdən də dərindən fikirləşə bilən idrak qüvvəsini tələb edir. Bu işlər səbr, təmkin, düzgün

təşkilatçılıq, ciddi nəzm, ayrılıq, mərama inam və fədakarlıq tələb edir! Yorğunluğa, məyusluğa heç vaxt yol vermək olmaz! Xüsusilə bir millətin ağır həyat məsuliyyəti nazik bir sapdan asıldıqda!

Ey Azərbaycan və ey bu qeyrətli millətin demokratik qüvvələri! Siz keçmişdə İranın həm rəhbərləri, həm də arxaları idiniz. İran demokratiyası yeniliyə, təkamülə, daha doğrusu, həyat və əbədiyyətə doğru irəliləyir. O, səni həmişə yol göstərən kimi xatırlayır, eyni zamanda səni öz arxasında hiss edir, sənin kimi bir arxa və köməkçinin varlığı ilə səni öndə hesab edir. Yəni sən də vaxtilə İranın həm sipəri, həm də vuran nizəsi olmusan.

*Səid Abbaszadə,*
*Təbriz, 2001-ci il*

# MÜNDƏRİCAT

**Müqəddimə** ........................................................................ 4
Qızıl səhifələr ........................................................................ 4
Doğulduğu yer ........................................................................ 7
**Birinci fəsil** ........................................................................ 8
Təvəllüd ........................................................................ 8
Dağıstan ........................................................................ 10
Hüseyni sülaləsi ........................................................................ 13
**İkinci fəsil** ........................................................................ 15
Şeyx Məhəmməd Xiyabaninin yaşadığı dövrdə siyasi şərait........ 15
Hadisə günü ........................................................................ 16
Yadellilərin ayaq izləri ........................................................................ 17
Azərbaycan fədailəri edam olunur ........................................................................ 19
Yaşasiın İran! ........................................................................ 20
Yeni hərəkatlar ........................................................................ 21
İran uğrunda mübarizə ........................................................................ 22
**Üçüncü fəsil** ........................................................................ 25
Xiyabaninin ayaq səsləri ........................................................................ 25
Əncümənin mahiyyəti ........................................................................ 26
Xiyabani və bir yolun başlanğıcı ........................................................................ 27
Çətinliklər dövrü başlanır ........................................................................ 31
Xiyabani Təbrizdə ........................................................................ 33
Böyük Türküstan ideyası ........................................................................ 34
Azadistan ........................................................................ 36